*"Qubanın qədim, çox yüksək mədəniyyət tarixi var. Təhsil, elm, bilik tarixi var.". Ümummilli liderimiz H.Əliyev parlament seçkiləri zamanı Quba ictimaiyyəti ilə görüşündə belə söyləmişdir. Keçmişi öyrənmək zəruridir. Kim keçmişini bilmirsə müasir həyatını qura bilməz. Gələcəyə düzgün nəzər salanmaz...*



# Muzeylər tariximizin yaddaşıdır!

Xalqımızın uzun əsrlər boyu yaratdığı tarix, elm, mədəniyyət, incəsənət incilərinin qorunub saxlandığı muzeylər eyni zamanda zəngin elm mərkəzlərindən biridir.

Azərbaycanda muzeylərin geniş şəbəkəsi və muzey işi əsasən 1920-30-cu illərdən sonra inkişaf etməyə başlamışdır. Yaranan hər bir muzey böyük rəğbətlə qarşılanmış, elmi mərkəzlər kimi muzeyşünaslıq elminin yaranmasına öz töhfəsini vermişdir.

XX əsrin I yarısında Azərbaycanda təşkil olunan muzeylərdən biri də Quba tarix muzeyidir

1924 - cü ildə "Cami" məscidinin mədrəsəsində dövrünün qabaqcıl ziyalısı, din xadimi axund Əhməd əfəndi Çələbizadənin təşəbbüsü və Quba ziyalılarının köməkliyi ilə ilk muzey yaradılır. Quba RİK rəyasət heyəti 11.VIII.1932- ci ildə muzeyin yaradılması haqqında qərar qəbul edir.

Xalq maarif komissarlığının 14 may 1935-ci il əmri ilə Çələbizadə Əhməd Əbdülrəhman oğlu Quba tarix muzeyinə müdir təyin olunur. 1937-ci ildə Əhməd əfəndi represiya qurbanı olur. Muzey bağlanır. 1943-cü ildə Quba ictimaiyyəti tarix muzeyinin açılması ilə bağlı Mərkəzi Komitəyə məktubla müraciət edir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 4.21.1943-cü il tarixli əmri ilə Qubada muzeyin yaranması haqqında qərar qəbul edilir.

Rəvayətə görə 1147-ci (hicri) ildə Nadir şah qısa müddətli istirahət üçün Qubada dayanır. Bu gözəl, füsunkar təbiətli məkan xoşuna gəldiyi üçün şəhər salmağı əmr edir. Ərdəbildən tacirlər, ustalar gəlir və ilk dini bina kimi "Ərdəbil" məscidi tikilir, yaşayış və ictimai binaların tikintisinə başlanılır.

O zaman Quba 4 hissədən ibarət olub:

1."Bayır şəhər"- cənub-qərb.

2."Ortaqapı" - cənub-şərq tərəfi əhatə edib.

3." Məscid qabağı "- cümə məscidinin qarşı tərəfi.

4."Ərdəbil məhəllәsi".

Hal-hazırda muzeyimizin binası həmin tarixi ərazidə yerləşir (Ərdəbil küçəsi, 93 saylı bina).

XIX əsrin əvvəllərində tikilən bu bina tarixi binadır. Azərbaycan SSR Nazirlər Sovetinin 14 may 1981-ci il №225 saylı qərarı ilə tarixi abidə kimi qeydə alınmışdır.

1835-ci ildə bu binada görkəmli alim və mütəfəkkir, şair A.A.Bakıxanov yaşamış, dövrünün qabaqcıl ziyalıları ilə görüşlər keçirmiş və ilk dəfə "Gülüstan" ədəbi məclislərini burada təşkil etmişdir.

Görkəmli alim və mütəfəkkir A.A.Bakıxanovun adını daşıyan Quba tarix-diyarşünaslıq muzeyi 1943-1958-ci illər Azərbaycan Elmlər Akademiyasının baza muzeyi kimi, 1958-1965-ci illər ictimai əsaslarla, 1965-ci ildən hal- hazıradək Azərbaycan Mədəniyyət Nazirliyinin tabeçiliyində fəaliyyət göstərir.

Muzey fəaliyyət göstərdiyi 60 il ərzində sanballı mədəni irs yaratmışdır. Hazırda muzeyin ekspozisiyasında və fondunda minlərlə eksponatlar saxlanılır və nümayiş etdirilir.

Uzun illər bu muzey Azərbaycanın Şimal bölgəsində yeganə muzey kimi fəaliyyət göstərmişdir.

Ulu öndərimiz H.Əliyevin mədəniyyət sahəsinə göstərdiyi qayğı nəticəsində 1981-ci ildən qonşu rayonlarda da muzeylər fəaliyyətə başlamışdır.

Qubada tarix-diyarşünaslıq muzeyindən başqa daha 2 muzey fəaliyyət göstərir:

1. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Quba şəhidlərinin xatirə muzeyi (1997).
2. Görkəmli mütəfəkkir A.A.Bakıxanovun yaşadığı Amsar kəndində memorual ev-muzeyi (1999).

Muzeylərimizdə xalq sənətinin qədim tarixi olan misgərlik və dulusçuluğun nadir nümunələri ilə yanaşı, Qubanın qədim, mürəkkəb kompozisiyalarla, rəngarəng naxışlarla toxunmuş "Qolluçiçi", "Alçagülçiçi", "Heyratı", "Ağgül " "Qımıl" və s. kimi əsrarəngiz xalçaları nümayiş olunur. Bir xalçamız keçmiş SSRİ məkanında (1983-84-cü illərdə) XTN sərgisində qızıl medala layiq görülmüşdür. 1712-ci ildə toxunmuş " Qolluçiçi" xalçası Nyu-York "Metropoliten" incəsənət muzeyinin nadir incilərindən sayılır.

Quba rayonu tarix, mədəniyyət, təbiət abidələri ilə zəngin olduğundan bizim başlıca vəzifəmiz bu abidələrin öyrənilməsi, tədqiqi və qorunub saxlanılmasına yönəldilmişdir. Rayonun ərazisində dövlət tərəfindən qorunan yüzlərlə məscid, türbə, yaşayış məskəni, kurqan və digər abidələr vardır. Lakin təmir işləri aparılmadığından bu abidələrin bir çoxu dağılmaq təhlükəsi ilə üzləşmişdir.

Son illərin iqtisadi problemləri Quba diyarşünaslıq muzeyini mənəvi, maddi, maliyyə çətinlikləri qarşısında qoymuşdur. Muzeyə vəsaitin ayrılmaması, muzey fondunun qiymətli eksponatlarla zənginləşməsinə və inkişafına mane olan amillərdən biridir.

Muzey işi ümumxalq işidir. Bu sənət əsərlərinin qorunmasında bütün ictimaiyyət, xeyriyyəçi şəxslər və sahibkarlar yaxından iştirak etməlidirlər.

Azərbaycan xalqının qədim tarixinin, mədəniyyətinin yaddaşlara əbədi həkk edilməsi, qorunması, saxlanılması muzey işçilərindən böyük səy, zəhmət, məsuliyyət tələb edir.

Biz muzey əməkdaşları da qüvvəmizi məhz bu istiqamətə yönəltmişik!

**M.Hacıyeva,**
**A.A.Bakıxanov adına Quba tarix-diyarşünaslıq muzeyinin direktoru**